*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (4) 2025*

*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:07.01.2025*
*Kabul tarihi |Accepted:03.05.2025*
*Yayın tarihi |Published:25.08.2025*

**Zəminə R. Babayeva**

***https://orcid.org/0009-0007-0714-6378***
*PhD student, Azerbaijan State Pedagogical University, Department of Economic Geography, Azerbaijan, z11ismayilova@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Babayeva, Z. R. (2025). Azərbaycan Respublikasinda Qida Sənayesinin Müasir İnkişaf Xüsusiyyətləri. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (4), 300-309.

# Azərbaycan Respublikasinda Qida Sənayesinin Müasir İnkişaf Xüsusiyyətləri

***Xülasə***

*Qida məhsulları insanların gündəlik həyatında əsas rol oynayır, həm də sosial və iqtisadi inkişafın mühüm bir parçasıdır.Məqalədə ölkədə qida sektorunun müasir inkişaf vəziyyəti təhlil edilir. Ölkənin sənaye istehsalının sahə strukturunda emal sənayesinin payı və bu göstəricidə qida məhsullarının istehsalının yeri qeyd olunur. Qida məhsullarının ayrı-ayrı qrupları istehsal dinamikası təhlil edilir. Uyğun olaraq bitkiçilik və heyvandarlıq məhsullarının istehsal, idxal və ixrac göstəricilərinin də təhlillləri aparılmışdır. Qida sektorunda aqro-ərzaq zəncirinin qiymətləndirmələri aparılmış, qida sənayesinə investisiyaların stimullaşdırılması istiqamətləri müəyyən edilmişdir.*

**Açar sözlər:** Qida Sənayesi, Istehsal Göstəriciləri, Idxal-Ixrac, Investisiya, Aqro-Ərzaq Zənciri

# Modern Development Characteristics of the Food Industry in the Republic of Azerbaijan

***Abstract***

*Food products play an important role in people's daily lives and are also an important part of social and economic development. The article analyses the modern development status of the food sector in the country. The share of the processing industry in the sectoral structure of the country's industrial production and the position of food product production in this indicator are highlighted. The production dynamics of individual groups of food products are analysed. Accordingly, the production, import, and export indicators of plant and animal products are also analysed. An evaluation of the agricultural food chain in the food sector has been conducted, and directions have been identified to encourage investments in the food sector.*

BY NC
Creative Commons Licence

***Keywords:*** *Food Industry, Production Indicators, Import-Export, Investment, Agricultural Food Chain*

## Giriş

Qida sənayesi milli iqtisadiyyatın sahələrindən biridir, əhalinin məşğulluğunda və iqtisadi məhsul istehsalı üçün yüksək əhəmiyyət kəsb edir. Bundan əlavə, kənd təsərrüfatı xammalının emalı və əhalinin ərzaq məhsulları ilə təminatında mərkəzi rol oynayır. Müasir dövrdə qloballaşma ərzaq və aqrobiznes tədarük zəncirlərinin strukturuna və inkişafına təsir edən amildir. Qlobal miqyasda aqro-ərzaq zəncirləri sürətlə genişlənir və bir-biri ilə əlaqəli olur. Bu inkişaf ərzaq məhsullarının istehsal, emal və çatdırılma üsullarını dəyişdirir, bununla da bazar tələblərini daha çox təmin etməyə yönəlir. Aqro-ərzaq zənciri kənd təsərrüfatı istehsalından qida istehlakına qədər kənd təsərrüfatı məhsulları istehsalını əhatə edir. Kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı sahələri üçün dəyər zəncirində iştirak ümumi sahə üzrə inkişaf tempini artırmağı zəruri edir. Kənd təsərrüfatının inkişafında dəyər zənciri yanaşması dəyər zəncirinin zəif tərəflərini müəyyən etməyə və əlavə dəyərin formalaşması mərhələlərində təkmilləşdirmə aparılmasına kömək edir. Dəyər zənciri istehsalın müxtəlif mərhələlərini, son istehlakçılara çatdırılmasını, tələb olunan fəaliyyətləri əhatə edir. Ərzaq məhsullarının mövcudluğu, onların keyfiyyəti və ekoloji təmizliyi ərzaq təhlükəsizliyinin səviyyəsinə təsir edir və onun sosial sabitliyinin göstəriciləri kimi çıxış edir. Yerli qida müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılması, sənayenin inkişafı üçün təhlükələrin və potensial imkanların müəyyən edilməsi, habelə yerli ərzaq məhsullarının keyfiyyət və rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi məsələləri çox aktuallaşır. Azərbaycan alimlərindən Ə. Hacızadə, A. Nadirov, A. Qurbanzadə, T. Həsənov, A. Zeynallı, M. Əliyev, Z. Məmmədov, V. Muradov, P. Məmmədov, N. Hüseynova və b. ölkədə sənayenin, o cümlədən qida sənayesinin inkişafı, iqtisadi rayonlar üzrə inkişaf tendensiyaları, müəssisələrin fəaliyyəti, istehsal və istehlak məsələlərini, ərzaq təhlükəsizliyi məsələlərini, problemlər, onların səbəb və nəticələrini daha geniş öyrənmişlər. Məqalədə istifadə edilən bütün məlumatlar son illərdə çap edilmiş ədəbiyyatlardan, rəsmi mənbələrdən götürülmüşdür. Tədqiqat işi statistik, müqayisəli təhlil, sistem-struktur və s. metodlar əsasında işlənmişdir. Tədqiqatın məqsədi yeyinti sənayesinin mövcud vəziyyətini və inkişafındakı xarakterik meylləri təhlil etmək, sənayenin inkişafına olan problemləri və həlli yollarını müəyyən etməkdir.

## 1. Azərbaycan Respublikasında Qida Sənayesi

Qida sənayesi ərzaq təhlükəsizliyinin təmin edilməsində, ixrac potensialının formalaşdırılmasında bilavasitə iştirak edir. Sənayenin ölkəmizin iqtisadiyyatı üçün əhəmiyyəti onun sənaye məhsullarının istehsalının və satışının ümumi həcmində xüsusi çəkisi, ixrac potensialı və təmin etdiyi vergi daxilolmalarının həcmi ilə müəyyən edilir. Emaledici sənaye sahələri içərisində 2013-2023-cü illər ərzində dinamik dəyişkənlik müşahidə olunmuşdur. Qeyd olunan illər ərzində yüksək göstərici 2020-ci ildə müşahidə olunmuşdur. Sonrakı illərdə tədricən azalma olmasına baxmayaraq, 2023-cü ildə artım (9.2%) olmuşdur (Şəkil 1).

***Şəkil 1. Sənaye istehsalının sahə strukturu, ümumi yekuna nisbətən müvafiq illərin faktiki qiymətləri əsasında, %*** (Azərbaycan sənayesi, 2024).




Qida sektoru üzrə fəaliyyət göstərən müəssisələrin sayı son illərdə artmışdır. Belə ki, 2000-ci ildə 481 müəssisə fəaliyyət göstərirdisə, 2023-cü ildə 844 müəssisə fəaliyyət göstərir (Azərbaycan sənayesi, 2024). Azərbaycanda yeyinti sənayesinin inkişafi və investisiyanin prioritet istiqamətlərini kənd yerlərində yerli texnologiyalara əsaslanan kiçik aqrar emal müəssisələrinin, mövcud olan həm istehsal, həm də emalla məşğul olan kəndli təsərrüfatları dəstəklənməli, ərzaq təchizatında və ixracda rolu olan rəqabətqabiliyyətli müəssisələrlə sistemli və məqsədyönlü tədbirlər gücləndirilməlidir (Huseynova, 2020). Qeyd olunan illər ərzində bitki yağları (0.5 dəfə), o cümlədən duru bitki yağları (0.6 dəfə), hidrogenləşdirilmiş yağlar (0.4 dəfə), şəkər (0.8 dəfə), buğda unu (0.9 dəfə) istehsalında cüzi azalma müşahidə olunmuşdur. Kolbasa məmulatları (6.0 dəfə), qatılaşdırılmış süd (11,2 dəfə), qaymaq, xama (1.8 dəfə), meyvə və tərəvəz konservləri və şirələri (1.6 dəfə), makaron məmulatları (2.8 dəfə), marqarin (1.9 dəfə) və b. məhsulların istehsalında nisbətən artım olmuşdur (cədvəl 1).

***Cədvəl 1. Qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri*** **(**Azərbaycan sənayesi, 2024).

| **Göstəricilər** | **2015** | **2020** | **2023** |
|---|---|---|---|
| Kolbasa məmulatları, ton | 4970.2 | 25833.6 | 30227.4 |
| Qatılaşdırılmış süd, ton | 992.3 | 6404.3 | 11155.1 |
| Ayran, ton | 3661.3 | 6488.9 | 11702.8 |
| Dondurma, ton | 1026.9 | 2243.2 | 5145.7 |
| Qaymaq, xama, ton | 5132.0 | 7742.2 | 9047.5 |
| Pendir və kəsmik, ton | 48494.0 | 53472.6 | 55063.4 |
| Kərə yağı, min ton | 23.9 | 25.8 | 27.0 |
| Balıq məhsulları (konservlər daxil olmaqla), min ton | 0.7 | 1.7 | 2.5 |
| Nərə kürüsü, ton | 0.1 | 0.1 | 0.8 |
| Meyvə və tərəvəz konservləri, şirələri, min ton | 147.9 | 186.7 | 234.4 |
| Makaron məmulatları, min ton | 9.2 | 11.8 | 25.8 |
| Bitki yağları, min ton | 106.7 | 75.1 | 56.4 |
| o cümlədən: | | | |
| duru bitki yağları, min ton | 67.5 | 53.3 | 40.9 |
| hidrogenləşdirilmiş yağlar, min ton | 39.2 | 21.8 | 15.5 |
| Marqarin, ton | 24924.7 | 49894.2 | 46985.0 |
| Mayonez, ton | 2658.5 | 3711.4 | 5538.7 |
| Unlu qənnadı məmulatları, min ton | 51.6 | 58.1 | 78.7 |
| Şəkərli qənnadı məmulatları, min ton | 4.3 | 11.6 | 10.5 |
| Şəkər, qənd, min ton | 335.6 | 246.5 | 287.1 |

| | | | |
|---|---|---|---|
| Buğda unu, min ton | 1507.0 | 1842.9 | 1328.0 |
| Çörək, min ton | 1198.0 | 1294.6 | 1195.8 |
| o cümlədən əmtəəlik | 754.8 | 845.8 | 787.6 |
| Çay, min ton | 6.2 | 10.6 | 11.6 |
| Qida duzu, ton | 36327.0 | 74253.3 | 71325.9 |

2022-ci ilin yanvar-aprel ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 3,5 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 3,5 faiz, bitkiçilik məhsulları istehsalı 3,2 faiz artmışdır (Sosial-iqtisadi inkişaf, 2023). İxrac məhsullarının dinamikasında 2013-2023-cü illər ərzində təzə meyvə, tərəvəz ixracında artım olmuşdur. Çay, bitki yağları, hidrogenləşdirilmiş piylər və yağlar, marqarin, şəkər ixracında azalma olmuşdur (Azərbaycanın ərzaq balansları, 2024). Bir çox kənd təsərrüfatı məhsullarının istehlakçıların istifadəsinə birbaşa çıxarılmasına baxmayaraq, məhsulların istifadə müddətini uztmaq, daha uzun məsafələrə çatdırmaq və dəyərini artırmaq üçün onların müxtəlif emal proseslərinə məruz qalması qaçılmazdır. Bu proselər emal edilən məhsullara əlavə dəyər qatır və beləliklə dəyər zəncirində iştirak edən bütün tərəflərə xidmət edir. Emal, istifadə və saxlama müddətlərini uzadaraq, bəzi hallarda məhsulların il boyu satılmasına imkan yaradır (Aksoy, Boz, Eynalov, Quliyev, 2018). Qida sahələrində məhsulların rəqabətqabiliyyətinin aşağı olmasını peşəkar kadr çatışmazlığı, investisiya cəlbediciliyinin aşağı olması, maliyyələşdirmə institutlarının zəif olması ilə sənayenin inkişafı ləngiyir, bu baxımdan yeyinti sənayesinin inkişafı istiqamətində müxtəlif tədbirlərin görülməsinə, dövlət dəstəyi və tənzimləmə mexanizminin təkmilləşdirilməsinə və tətbiqinə ehtiyac var (Muradov & Mamedov, 2024).

***Cədvəl 2 Bitkiçilik məhsulları istehsalı göstəriciləri, min ton*** (Azərbaycanın ərzaq balansları, 2024).

| | **2010** | **2015** | **2020** | **2024** |
|---|---|---|---|---|
| Dənli və dənli paxlalı bitkilər | 2,000.5 | 2,999.4 | 3,257.1 | 3,278.1 |
| Kartof | 953.7 | 839.8 | 1,037.6 | 927.4 |
| Tərəvəz | 1,189.5 | 1,275.3 | 1,738.9 | 1,838.9 |
| Bostan bitkiləri | 433.6 | 484.5 | 448.1 | 490.6 |
| Meyvə və giləmeyvə | 729.5 | 888.4 | 1,133.1 | 1,317.9 |
| Üzüm | 129.5 | 157.1 | 208.0 | 205.1 |

| | | | | |
|---|---|---|---|---|
| Şəkər çuğunduru | 251.9 | 184.3 | 233.8 | 244.2 |
| Yaşıl çay yarpağı | 0.5 | 0.6 | 0.9 | 1.1 |

Cədvəl 2-ə nəzərən, 2010-2024-cü illər ərzində istehsalda nisbətən azalma müşahidə olunan məhsullarda kartof, şəkər çuğunduru aiddir. Dənli və dənli paxlalı bitkilər, yaşıl çay yarpağı istehsalında qeyd olunan illər ərzində artım müşahidə olunur. Meyvə və giləmeyvə, tərəvəz, mostan bitkilərinin istehsal göstəricilərində dinamik dəyişkənlik müşahidə olunur.

***Cədvəl 3 Heyvandarlıq məhsulları istehsalı göstəriciləri*** (Azərbaycanın ərzaq balansları, 2024).

| | **2010** | **2015** | **2020** |
|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə), bütün təsərrüfat kateqoriyaları üzrə (min ton) | 244.9 | 298.6 | 346.0 |
| Süd, bütün təsərrüfat kateqoriyaları üzrə (min ton) | 1,535.8 | 1,924.5 | 2,192.5 |
| Yumurta, bütün təsərrüfat kateqoriyaları üzrə (mln.ədəd) | 1,178.6 | 1,552.9 | 1,906.2 |

Cədvəl 3-ə nəzərən, heyvandarlıq məhsullarının istehsalı artımla müşahidə olunur. Ət və süd istehsalında fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarının payı çoxdur. Ət, süd, balıq və donmuş qida kimi həssas məhsulların hansı temperaturda qorunması qida təhlükəsizliyi baxımından çox vacibdir. Temperatur dəyişiklikləri zərərli mikroorqanizmlərin çoxalmasına səbəb olur. Bu isə məhsulların fiziki, kimyəvi və əmtəə görünüşünə mənfi təsir göstərir. Odur ki, zərərli mikroorqanizmlərin çoxalmasının qarşısını almaq və qidaların təzə qalması üçün soyuq zəncir istehsaldan istehlaka kimi bütün mərhələlərdə qırılmamalıdır. Qida təhlükəsizliyi qaydalarına görə, soyuq yerdə saxlanılmalı olan qidanın istehsalından başlayaraq daşınma, saxlanma və satış kimi istehlaka qədərki bütün pillələrdə tətbiqi məcburi olan prosesə soyuq zəncir deyilir (İctimaiyyetle-elaqeler, 2025). Aqro-ərzaq zəncirində səmərəlilik müəyyən amillərdən asılıdır ki, onlara istehlakçının qida seçimindən, istehlakçının ədalətli qida almaq niyyətindən, istehlakçının ədalətli qidanın qəbul etdiyi dəyərdən və istehlakçı davranışından asılıdır. Ədalətli qida atributları istehlakçıların qida seçiminə təkan verə bilər. İstehlakçılar daha ədalətli qida zəncirinin mühüm hissəsidir. Buna görə də, onların qida seçimlərinə və seçimlərinə, qida satın alma davranışlarına və niyyətlərinə təsir edən hər bir element həm də aqro-ərzaq sisteminin ədalətliliyinə

və deməli, davamlı inkişafa təsir göstərir (Samoggia & Beyhan, 2022). Qida və aqrobiznes zəncirləri, istehlakçıların qida keyfiyyəti və təhlükəsizliyi ilə bağlı narahatlıqlarını və ətraf mühitə təsirlə bağlı mövcud ictimai narahatlıqları nəzərə alaraq, müasir dövrün tələblərinə uyğun inkişaf etməlidir. Fermerlər, istehsalçılar və pərakəndə satıcılar aqro-ərzaq zəncirinin qiymətləndirərkən müəyyən təcrübələri və aspektləri nəzərə alır:

***Satış qiyməti və rəqabətlilik**

Fermerlər və istehsalçılar, məhsullarının qiymətlərini və bazar rəqabətini qiymətləndirərkən, hansı tərəfdaşların daha düzgün şərtlərlə alış-veriş etdiklərini müəyyən edə bilərlər. Bu, onlar üçün yalnız qiymət məsələsi deyil, həm də uzunmüddətli əməkdaşlıq və qarşılıqlı fayda prinsiplərinə əsaslanır.

***Məhsul keyfiyyəti və istehsal şərtləri**

İstehsalçılar, ərzaq məhsullarının keyfiyyətini və istehsal şərtlərini qiymətləndirərkən müəyyən amillər nəzərə alınır. Burada əmək qüvvəsinin şəraiti, emal prosesləri və məhsulun son istifadəçiyə çatdırılmasında mühüm rol oynaya bilər.

***Yerli bazar və kiçik istehsalçılarla əməkdaşlıq**

Aqro-ərzaq zəncirinin yüksək qiymətləndirilməsi və ədalətli qiymətlərin təklif edilməsi yerli fermerlərin və kiçik istehsalçıların dəstəklənməsinə imkan verir.

***İnnovasiya və texnologiya tətbiqləri**

Yeni texnologiyalar və innovasiyalar aqro-ərzaq sistemlərinin daha davamlı və ədalətli olmasını təmin edə bilər. Bu texnologiyalar arasında daha səmərəli suvarma sistemləri, təbii məhsulların istehsalını artıran biotexnologiyalar və ya resursların optimallaşdırılmasına kömək edən texnoloji həllər yer alır.

***Ətraf Mühitə Təsir**

Aqro-ərzaq istehsalçıları ətraf mühitə təsirləri və dayanıqlı kənd təsərrüfatı təcrübələrini qiymətləndirirlərsə, bu da onların ədalətlilik təcrübələri arasında yer ala bilər. Fermerlər və istehsalçılar, ətraf mühitin qorunmasına dair tədbirləri qiymətləndirə bilər və hansı təcrübələrin daha səmərəli olduğunu müəyyən edə bilərlər.

Qida sənayesi məhsullarının dəyər zəncirinin regional idarəetmənin effektivliyinin qiymətləndirilməsi metodologiyasında regional məhsul dəyər zəncirində qida sənayesində məşğul olan əhalinin həyat səviyyəsini və ərzaq təminatını qiymətləndirmək, resurslardan istifadə və müasir texnologiyaların tətbiqi nəticəsində fəaliyyətin nəticələrini hərtərəfli qiymətləndirmək və b.

imkanlar yaradır (Andreyev & Boldyreva, 2019). İstehsal prosesində enerji istifadəsi vacib amillərdəndir. Ətraf mühitə daha az zərər verən enerji növlərindən istifadə son dövrlərin aktual məsələlərindəndir. Enerji bütün qida zəncirində istifadə edilir: bitkiçilik, heyvandarlıq və meşə təsərrüfatı məhsullarının istehsalında; məhsul yığımından sonrakı mərhələlərdə; qida məhsullarının saxlanması və emalı sahəsində; qidanın daşınması və paylanmasında; yemək hazırlanmasında. Bundan əlavə, enerji qida istehsalı prosesinin yaratdığı müxtəlif növ məhsul və tullantıların çevrilməsinə və təkrar istifadəsinə kömək edir. Bu faktorlar, yalnız bir neçə aspektdən ibarət olmaqla yanaşı, aqro-ərzaq zəncirinin ədalətliliyinə dair müxtəlif perspektivlərə uyğun olaraq fərqli şərtlər altında qiymətləndirilə bilər. Ərzaq tədarükü və ya dəyər zəncirləri müxtəlif və çox mürəkkəbdir. Qida zəncirində enerjinin növü və istifadə üsulu ölkədəki qida sisteminin ekoloji cəhətdən dayanıqlı şəkildə böyümə və məhsuldarlıq məqsədlərini nə dərəcədə dəstəkləyə biləcəyinə təsir edə bilər. Enerji, bir istehsal vəsaiti kimi, kənd təsərrüfatı sektorunun gəlirliliyinə və rəqabət qabiliyyətinə təsir edən mühüm elementdir. Bundan əlavə, kənd təsərrüfatı bərpa olunan enerjinin mühüm potensial mənbəyinə çevrilə bilər və beləliklə, fermerlər və kənd iqtisadiyyatı, eləcə də ətraf mühitin yaxşılaşdırılması üçün əhəmiyyətli iqtisadi imkanlar təmin edə bilər. Azərbaycanda BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı (FAO) kənd təsərrüfatı sahəsində layihə həyata keçirilmişdir. Layihədə BMT-nin Dayanıqlı inkişaf məqsədləri üzrə nəzərdə tutlan 17 qlobal məqsəddən ibarətdir. Layihənin həyata keçirilməsi ərzaq və kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan kiçik və orta sahibkarların məhsuldarlığını artıracaq və ixrac imkanlarını artıracaq. Təşəbbüs vasitəsilə aclığa son, layiqli əmək və iqtisadi artım, məsuliyyətli istehsal və istehlak məqsədlərini dəstəkləməkdir. Aqro-ərzaq zəncirində fermer, emal müəssisələri, pərakəndə satıcı və istehlakçı əhəmiyyətli rola malikdir. Davamlı aqro-ərzaq zənciri, təbii resursları qoruyaraq, ətraf mühitə zərər vermədən və sosial ədaləti təşviq edərək ərzaq istehsalını və paylanmasını təmin edən bir sistemdir. Bu sistemdə, həmçinin iqtisadi səmərəlilik və ekoloji balans da nəzərə alınır. Davamlı aqro-ərzaq zəncirinin əsas məqsədi, qlobal əhali artımına uyğun olaraq ərzaq ehtiyaclarını ödəməkdir.

**Nəticə**

Aparılan təhlillərə əsasən, bu nəticəyə gəlmək olar ki, qeyd olunmuş illər ərzində qida məhsulları istehsalı artımla müşahidə olunur. Bitkiçilik məhsullarından dənli bitkilər, şəkər çuğunduru, yaşıl çay yarpağının istehsalının artırılmasına ehtiyac vardır. Özünütəminetmə səviyyəsinin yüksəldilməsi idxalın azalmasına təsir göstərər. Qida sənayesi, ölkənin

iqtisadiyyatında mühüm rol oynayır və bu sahənin potensialı çox böyükdür. İxrac imkanlarının artırılması və xarici investorların cəlb edilməsi bu sahənin inkişafını sürətləndirə bilər. Bu istiqamətdə:

-Ekoloji cəhətdən təmiz və təhlükəsiz məhsulların istehsalı ön planda olmalıdır. Bu, həm yerli bazarın tələblərini ödəmək, həm də beynəlxalq bazarlarda rəqabətqabiliyyətini artırmaq üçün vacibdir.

-Yeni texnologiyaların tətbiqi qida istehsalının səmərəliliyini artırmağa, məhsulun keyfiyyətini yaxşılaşdırmağa və istehsal proseslərini daha müasir və ekoloji cəhətdən təmiz etməyə kömək edə bilər. Eyni zamanda, ərzaq təhlükəsizliyi məsələsi də mühüm əhəmiyyət kəsb edir.

-Qida məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi, həm yerli istehlakçıların, həm də beynəlxalq aləmdə müştərilərin etibarını qazandırmağa yönəlib. Bundan əlavə, qida sektorunda investisiyaların stimullaşdırılması milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini artırmağa xidmət edir. Sektorun inkişafı, iş yerlərinin yaradılması və iqtisadiyyatın inkişafına kömək edə bilər. Bütün bu amillər, qida sənayesinin həm daxili, həm də xarici bazarlarda mövqeyini gücləndirə bilər.

**Ədəbiyyat**

Aksoy, U., Boz, İ., Eynalov, H., Quliyev, Y. (2018). *Azərbaycanda orqanik kənd təsərrüfatı: Hazırkı durum və gələcək inkişaf potensialı.* BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı.

Andreyev T.V., Boldyreva N.V. P. (2019). Metodicheskoye vozdeystviye produktsii pishchevoy promyshlennosti na zarubezhnom urovne. *Ekonomika sozidaniya, 13* (10), 2007–2036 (In Russian).

*Azərbaycan sənayesi*. (2024). Statistic məcmuə. ARDSK.

*Azərbaycanın ərzaq balansları*. (2024). Statistik məcmuə. ARDSK.

Huseynova, N.R. (2020). Azərbaycanda yeyinti sənayesinin inkişafi və investisiyanin prioritet istiqamətləri, jurnal Bazar iqtisadiyyatinin inkişaf istiqamətləri. *Audit,* 1, 27, 113-122.

ictimaiyyetle-elaqeler, 2025, https://afsa.gov.az/az/ictimaiyyetle-

Muradov V., Mamedov P. (2024). Azerbaydzhan imeyet vozmozhnost' ikh rasshireniya. *Nikakikh rezul'tatov. Ekonomicheskiye nauki, 10* (2), 12-19. (In Russian).

Samoggia, A., & Beyhan, Z. (2022). Fairness-enabling practices in agro-food chain. *Sustainability*, *14* (11), 6391.

*Sosial-iqtisadi inkişaf.* (2023). Statistik məcmuə, ARDSK, Aylıq hesabat (yanvar-fevral).